# Ulu öndərin anadan olmasının 93-cü ildönümü münasibətilə mayın 10-da keçirilmiş iməciliklərdə 305734 ağac əkilib





Xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanda ətraf mühitin qorunması ilə bağlı ekoloji tədbirlərin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayıb. Ulu öndərin ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi siyasət sayəsində Azərbaycanda yeni meşələr, bir-birindən gözəl parklar və istirahət guşələri yaradılıb. Ümummilli lider Heydər Əliyev yaşıllıqların qorunmasından danışarkən deyirdi: "Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir".

Ulu öndər Heydər Əliyevin bu tövsiyəsinə əməl edən Azərbaycan xalqı dahi oğlunun doğum günlərində ənənəvi olaraq ağacəkmə iməcilikləri keçirir, yeni yaşıllıq sahələrinin salınmasında fəal iştirak edir. Bu ənənə mayın 10-da - ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü günündə də davam etdirilib, paytaxt Bakıda, respublikanın digər şəhər və rayonlarında ağacəkmə kampaniyası keçirilib.

77 şəhər və rayonda keçirilmiş iməciliklərdə 150 859 nəfər iştirak edib və ümumilikdə 305 734 ağac əkilib. Onlardan 33 mini Bakı şəhərində, 272 734-ü isə digər şəhər və rayonlarda əkilib.

Bakı şəhərində ağaclardan 11500-ü Zığ-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun sağ kənarındakı 12 hektar, 2500-ü Qala-Türkan avtomobil yolunun ətrafında olan 2 hektar ərazidə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə, 19 mini isə Bakı şəhəri rayonlarının müxtəlif ərazilərində əkilib.

Respublikanın müxtəlif şəhər və rayonlarının ərazilərində keçirilmiş iməciliklərdə əkilmiş ağacların 69 677-si Eldar şamı, 31 224-ü çinar, 26 550-si zeytun, 26 227-si sərv, 20 818-i söyüd, 20 708-i küknar, 15 974-ü göyrüş, 11 754-ü qarağac, 10 660-ı qovaq, 71 142-si isə digər ağaclar olub.

Əkilmiş ağacların qorunması və onlara qulluq edilməsi ilə bağlı şəhər və rayonların icra hakimiyyəti başçılarına müvafiq tapşırıqlar verilib.










Mayın 10-da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən rayonlarda ağacəkmə aksiyaları keçirilib.

Ağacəkmə aksiyalarında nazirliyin yerli qurumlarının minlərlə əməkdaşı iştirak edib. Respublika üzrə 34 hektar ərazidə dibçəklərdə yetişdirilmiş 55 minə yaxın Eldar şamı, sərv, tuya və digər həmişəyaşıl ağacları əkilib.

* * *

**Nərimanov** Rayon İcra Hakimiyyəti və IDEA İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən silsilə tədbirlər çərçivəsində növbəti ağacəkmə kampaniyası keçirilib. Yaşıllaşdırma marafonunda məqsəd yaşıllıq zolağını daha da genişləndirmək, şəhərin ekoloji tarazlığını bərpa etmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etməkdir.

Əvvəlcə Azadlıq prospekti boyunca yol kənarındakı ərazidə, daha sonra isə akademik Həsən Əliyev küçəsi ilə Aşıq Molla Cümə küçəsinin kəsişməsində yerləşən 15 hektar sahəni əhatə edən yaşıllıq zolağında ətraf ərazi tullantılardan təmizlənib. Burada mövcud olan yaşıllığa aqrotexniki qulluq edilib. Ərazidə 2016 ədəd Eldar şamı və İtaliyadan gətirilən, hündürlüyü 5 metrə yaxın 93 ədəd Leylandra ağacları əkilib.

Aprel döyüşləri zamanı təmas xəttində qəhrəmancasına şəhid olan Nərimanov rayonundan hərbi xidmətə çağırılmış Mahir Mirzəyevin atası Sabir Mirzəyev tədbirdə iştirak edərək ulu öndərin xatirəsinə ağac əkib.

* * *

**Suraxanı**da ümumrayon iməciliyi mayın 10-da Zığ-Heydər Əliyev Beynəlxalq Hava Limanı yolunun sağ tərəfində təşkil olunub. 3 min 500 nəfərin iştirak etdiyi iməcilikdə 12 kilometr uzunluğunda yolun kənarlarında təmizlik işləri aparılıb, əkilmiş ağacların dibləri yumşaldılıb, 500-dən artıq kiparis ağacı əkilib.

Həmin gün ulu öndərin anadan olmasının 93 illiyi münasibətilə rayon icra hakimiyyətinin təşkilatçılığı ilə, eyni zamanda, rayonun Zığ qəsəbəsində "Zığ şosesi" küçəsinin ətrafında ağacəkmə aksiyası keçirilib. 400 nəfərin iştirak etdiyi növbəti ağacəkmə aksiyasında 1000-dən artıq kiparis ağacı əkilib, yolun kənarlarında müvafiq təmizləmə işləri aparılıb, abadlıq işləri görülüb.

Suraxanı rayonunun ərazisi getdikcə geniş vüsət alan ağacəkmə aksiyaları nəticəsində abadlaşır, yaşıllıqlarla zənginləşir, ekoloji mühit sağlamlaşır, torpaq qatı münbitləşir və insanlar arasında təbiətə qayğı hissi təbliğ edilir.

* * *

**Yasamal** Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə növbəti ağacəkmə aksiyası keçirilib. Rayonun idarə, müəssisə və təşkilatlarının təmsilçilərinin, ictimaiyyətin nümayəndələrinin, könüllü sakinlərin, həmçinin gənclərin yüksək fəallıqla qoşulduğu genişmiqyaslı iməcilikdə ilkin olaraq rayonun bir neçə yerində, o cümlədən Bakı dairəvi yolun kənarlarında ağac əkilib, yaşıllaşdırma tədbiri - ümumrayon iməciliyi keçirilib. Ümumilikdə 3500 nəfərin iştirak etdiyi iməcilikdə 1400 dekorativ ağac və bəzək kolu əkilib. Ağacların bir qismi nadir ağac növləri olmaqla, xarici ölkələrdən gətirilib, bir qismi isə yerli şəraitə uyğun, ənənəvi ağac növləridir. İməcilikdə, həmçinin əkilmiş ağaclar suvarılıb, taxta dirəklərlə möhkəmləndirilib.

* * *

**Lənkəran**da kütləvi ağacəkmə aksiyası keçirilib. Minədək sakinin iştirak etdiyi aksiyada 2500-ə yaxın ağac, 3000 mindən çox gül kolu əkilib.

* * *

**Qazax** rayonunda ağacəkmə kampaniyası keçirilib.

Rayon sakinlərinin və ictimaiyyət nümayəndələrinin də fəallığı ilə müşayiət olunan aksiyada Bakı-Tbilisi magistral avtomobil yolunun Qazax rayonu ərazisindən keçən hissəsində 5 mindən çox müxtəlif növ ağac əkilib, eyni zamanda, həmin ərazidə ötən illərdə əkilmiş ağaclara aqrotexniki qulluq göstərilib.

* * *

**Şəmkir** rayonunda İpək yolunun kənarında, rayonun kənd və qəsəbələrində ağacəkmə aksiyası və iməcilik təşkil edilib. Yerli iqlim şəraitinə uyğun 10 minədək şam ağacı, yeni gül kolları əkilib.

* * *

**Samux** rayonunda ağacəkmə kampaniyası keçirilib.

Aksiyanın ilk günündə rayonun əsas magistral və avtomobil yollarının kənarlarına yerli iqlim şəraitinə uyğun olan 3000 ədəd müxtəlif növ ağac və 15000 ədəd dekorativ gül kolu əkilib, ağaclara aqrotexniki qaydada qulluq göstərilib.

* * *

**Kürdəmir**də ağacəkmə kampaniyası keçirilib.

Kampaniyada 3000 nəfərdən çox rayon sakini iştirak edib. Şəhərin küçə və parklarında, yol kənarlarında 7000-dən çox müxtəlif növ ağac əkilib.

* * *

**Qaradağ** rayonunda ağacəkmə aksiyası keçirilib.

Ağacəkmə kampaniyası Qaradağ rayonundakı bütün park və yaşıllıqları əhatə edib. Rayon ictimaiyyətinin yaxından iştirak etdiyi aksiyada ölkəmizin iqlim şəraitinə uyğun, dözümlü və dekorativ cəhətdən yaraşıqlı ağaclar əkilib.

Ümumilikdə rayon ərazisində 30 min gül-çiçək və bəzək kolu, 13 minə yaxın həmişəyaşıl dekorativ ağac əkilib.

* * *

**Sumqayıt** şəhərində ağacəkmə aksiyası keçirilib. Heydər Əliyev parkından başlayaraq Sülh, Çerkassi, Koroğlu küçələrində, yeni yaradılan bulvarda, Nəsimi parkında, təhsil, səhiyyə və mədəniyyət ocaqlarının, sənaye zonalarının qarşısında 23 minə yaxın ağac tingi, 300 min mövsümi gül, 90 min qızılgül əkilib. Şəhər 1 saylı Doğum Evinin əməkdaşları da ağacəkmə kampaniyasında yaxından iştirak ediblər. Səhiyyə ocağının həyətində müxtəlif növ ağac və gül kolları əkilib.

Daha sonra Nəriman Nərimanov küçəsində "Nizami" kinoteatrının qarşısındakı yeni park istifadəyə verilib. Açılış mərasimində bildirilib ki, burada tikinti qaydalarına uyğun olmayan, inzibati, mədəni obyektlərin qarşısını kəsən obyektlər sökülüb, park salınıb. Ərazidə 10 minə yaxın müxtəlif növ gül, yüzlərlə ağac əkilib, 1000 kvadratmetr sahəyə qazon döşənib. Ərazi bütövlükdə abadlaşdırılıb.

* * *

**Tərtər** rayonunda keçirilən ağacəkmə aksiyasında 1150 nəfərdən çox tərtərli iştirak edib. Onlar Tərtər-Bərdə, Tərtər-Ağdam, Tərtər-Goranboy magistral avtomobil yollarının kənarlarında, şəhərin prospektində və küçələrində 3450 ədəd çinar, Eldar şamı, küknar, göyrüş, sərv və müxtəlif meyvə ağacları, 100 min ədəd dekorativ kol, 10 min ədəd gül və çiçək əkiblər. Ağacların və güllərin suvarılması üçün yeni su xətləri çəkilib, yaşıllıqlara lazımi qulluq göstərilib.

* * *

**Zaqatala** şəhərində, eləcə də rayonun qəsəbə və kəndlərində gül və ağacəkmə aksiyaları keçirilib. Aksiya zamanı şəhərin park və xiyabanlarında, prospekt və küçələrin kənarında 1820 ədəd qızılgül kolu, 4170 ədəd müxtəlif növdə gül, çiçək və bəzək kolları əkilib. Bundan əlavə, aksiya çərçivəsində bir hektara yaxın ərazidə müxtəlif ağac növləri, o cümlədən 420 ədəd akasiya, 130 ədəd katalpa, 130 ədəd sərv, 110 ədəd qoz, 60 ədəd palıd ağacı əkilib.

* * *

**Şəki** şəhərində, rayonun qəsəbə və kəndlərində ağacəkmə aksiyaları keçirilib, təmizlik və abadlıq işləri aparılıb.

Aksiya zamanı Şəki şəhərinin Olimpiya məhəlləsində, Zərifə Əliyeva küçəsinin M.Ə.Rəsulzadə prospekti ilə kəsişməsindən Oğuz yolunadək olan hissədə yüzlərlə ağac əkilib. Aksiyada şəhər rəhbərliyi, əmək kollektivləri və sakinlər iştirak ediblər.

Ümumiyyətlə, ağacəkmə aksiyası zamanı rayon ərazisində 8 minə yaxın müxtəlif növ ağac əkilib.

* * *

**Biləsuvar**da ağacəkmə kampaniyası keçirilib.

Aksiya çərçivəsində Ələt-Astara magistralının rayon ərazisindən keçən hissəsində 600-dən çox ağac, şəhərin Heydər Əliyev prospekti boyunca və Heydər Əliyev Mərkəzinin ətrafında 2000 bəzək və gül kolu əkilib.

Biləsuvarın təbii-coğrafi iqlim şəraitinə uyğun olaraq əkilən ağaclar, gül kolları xüsusi maşınlar vasitəsilə suvarılıb, qoruyucu zolaqlar çəkilib. Aksiyada 1200-ə yaxın rayon sakini iştirak edib.

* * *

**Cəlilabad**da ağacəkmə aksiyası keçirilib. Aksiyada Bakı-Astara magistral yolunun Cəlilabad rayonundan keçən hissəsi boyunca 10 mindən çox müxtəlif növ ağac əkilib.

* * *

**Ağdam** rayon ərazisində iməcilik keçirilib. Tərtər-Hindarx avtomobil yolunun Quzanlı qəsəbəsi və İmamqulubəyli kəndi ərazisindən keçən hissəsində, Bayraq meydanında, Quzanlı-Xındırıstan avtomobil yolunun kənarında və Heydər Əliyev parkında abadlıq-təmizlik işləri aparılıb, 2875 çinar, zeytun, Eldar şamı, küknar, sərv və digər ağaclar əkilib.

* * *

**Beyləqan**da da ümumrayon iməciliyi keçirilib, 2 mindən çox ağac və gül kolu əkilib.

* * *

**Horadiz** şəhərində iməciliklər keçirilib, ağac və gül kolları əkilib, küçə və meydanlarda, parklarda abadlıq, səliqə-sahman işləri görülüb.

***AZƏRTAC***